## Sertifikatlar, Keçdiyi təlim və seminarlar, Beynəlxalq və yerli qrant layihələrində iştirak, Mükafatlar

Ekologiya mühəndisliyi ixtisası üzrə aşağıdakı fənlərin təlim proqramlarını uğurla başa vurmuş və sertifikatlara layiq görülmüşdür:

1. Ümumi ekologiya (təlimçi: Türkiyənin Qazi Universitetinin prof.dr. Ali Gül);
2. İqlim dəyişmələri və qlobal istiləşmə (təlimçi: Türkiyənin Hacettepe Universitetinin, dr. (PhD) Aytac Perihan Akan);
3. Ekologiya mühəndisliyində bioloji proseslər (təlimçi: Türkiyənin İstanbul Universitetinin prof.dr. Serdar Aydın);
4. Ətraf mühitə təsirin qiymətləndirilməsi (təlimçi: Türkiyənin Qazi Universitetinin prof.dr. Beril Salman Akın);
5. Məsafədən zondlamanın fiziki əsasları (təlimçi: Türkiyənin Karabük Universitetinin prof.dr. Fatih Aydın);
6. Hidrologiya (təlimçi: Artvin Çoruh Universitetinin dos.dr. Ayla Bilgin);
7. Su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi (təlimçi: Artvin Çoruh Universitetinin dos.dr. Ayla Bilgin).

2016-cı ildən Kənd Təsərrüfatı Nazirliyinin Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunda elmi işçi, böyük elmi işçi, aparıcı elmi işçi vəzifələrində çalışmışdır. 2019-cu ildən Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun Həmkarlar İttifaqı Komitəsinin sədri seçilmişdir.

Ölkəmizin ən zəngin üzüm genetik ehtiyatlarına sahib Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun Ampeloqrafik Kolleksiya Bağının zənginləşməsini təmin edən heyətin tərkibində yer almış, xüsusilə yerli, hibrid və introduksiya olunmuş üzüm sortlarının tədqiqi, texnoloji qiymətləndirilməsi, məhsuldarlıq və keyfiyyətin yüksəldilməsinə yönəlmiş ən uyğun anac seçimindən, müxtəlif budama texnikaları, becərmə formaları və iqlim dəyişmələri fonunda fərqli anaclar üzərində fərqli suvarma rejimlərinin keyfiyyət və məhsuldarlığa təsirləri və digər mövzularda aparılan araşdırmalarda fəal iştirak etmişdir. Azərbaycanın yerli üzüm sortlarının toplanması, bərpası, elmi əsaslarla öyrənilməsi, Almaniyanın Geilweilerhof Üzümçülük İnstitutu (Institut für Rebenzüchtung Geilweilerhof) ilə birgə beynəlxalq səviyyədə qəbul edilmiş molekulyar-genetik markerlərlə identifikasiyası, genetik analiz edilmiş sortların mənşəyinin qorunub saxlanılması üçün pasportlaşdırılması məqsədilə ölkəmizin üzümçülük bölgələrində araşdırma və elmi ekspedisiyalarda fəal iştirak etmişdir.

İnstitutun laboratoriyalarında elmi-tədqiqat işlərinin beynəlxalq standartların tələblərinə uyğun təşkil olunmasını, innovasiyaların informasiya-məsləhət xidmətləri vasitəsilə fermerlərə ötürülməsi üçün “Yerli üzüm sortları və şərabçılıq məhsulları” portalının (http://wine-grape.gov.az), üzümçülük və şərabçılıq üzrə milli informasiya sisteminin yaradılmasını təmin edən heyətin tərkibində yer almışdır.

Mövsüm üzrə işlərin elmi əsaslarla yerinə yetirilməsi məqsədilə üzüm və şərab istehsalı ilə məşğul olan fermer və sahibkarlar üçün aktual mövzularda Kənd Təsərrüfatı Nazirliyinin rəsmi saytında, AzərTac Dövlət İnformasiya Agentliyində və müxtəlif kütləvi informasiya vasitələrində “fermerlərə tövsiyə” seriyası ilə mütəmadi olaraq publisistik yazıları dərc olunmuşdur.

***Keçdiyi təlim və seminarlar (mövzu və bölgə)***

Üzümçülükdə mövsümi aqrotexniki işlər və xəstəlik-zərərvericilərə qarşı proflaktiki tədbirlər – Salyan, Cəlilabad, Kürdəmir;

Xarici üzüm sortlarının budama qaydaları – Şamaxı;

Üzümçülükdə innovativ diferensial texnologiyalar və risklər – Şamaxı, İsmayıllı, Kürdəmir;

Şərabın texnologiyası – Qəbələ, Cəlilabad;

Şərabların qüsur, xəta və xəstəlikləri, onlara qarşı tətbiq olunan texnoloji və mikrobioloji üsullar – İsmayıllı, Qax, Qəbələ, Şəmkir, Göygöl, Tovuz, Cəlilabad, Şamaxı, Abşeron;

Azərbaycanda üzümçülük və şərabçılığın inkişafında gənc innovatorların rolu – Quba;

Texniki üzüm sortlarının keyfiyyətinə becərmənin təsiri – bütün üzümçülük və şərabçılıq bölgələrində yerləşən Dövlət Aqrar İnkişaf Mərkəzlərinin (DAİM) əməkdaşları və fermerlər;

Üzümün emalı zamanı yaranan tullantılardan səmərəli istifadə olunması və üzüm yağının innovativ istehsal texnologiyası – bütün üzümçülük və şərabçılıq bölgələrində yerləşən DAİM-lərin əməkdaşları və fermerlər.

Agro info saytı: http://www.agroinfo.az/page/master/273

***Beynəlxalq və yerli qrant layihələrində iştirakı***

1. İqtisadiyyat Nazirliyi və BMT-nin İnkişaf Proqramı ilə birgə əməkdaşlıq çərçivəsində icra edilən "Azərbaycan iqtisadiyyatının rəqəmsallaşdırılması ekosistemi" layihəsində – 2021
2. Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) tərəfindən icra edilən "Cənubi Qafqazda Özəl Sektorun İnkişafı və Texniki Peşə Təhsili və Təlimi" regional proqramına əsasən keçirilən İsmayıllı, Şamaxı və Salyan Dövlət Aqrar İnkişaf Mərkəzlərinin üzümçülük sahəsində potensialının inkişafı layihəsində – 2021
3. Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi (BMZ) tərəfindən maliyyələşdirilən və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) tərəfindən icra edilən "Cənubi Qafqazda Özəl Sektorun İnkişafı və Texniki Peşə Təhsili və Təlimi" regional proqramına əsasən həyata keçirilən layihədə (Qərb bölgəsi – Şəmkir, Göygöl, Tovuz, "Üzüm-şərab istehsalında beynəlxalq standartların və innovativ texnologiyaların tətbiqi" mövzusu üzrə) – 2019
4. Avropa İttifaqının (Aİ) maliyyələşdirdiyi "Azərbaycanda peşə təhsili və təlimi mərkəzlərinin müasirləşdirilməsi" qrantı çərçivəsində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) icra etdiyi "Qəbələ, İsmayıllı və Qax rayonlarında kənd təsərrüfatı və turizm sahələrində dual peşə təhsili və təlimi pilotlarının yaradılması" (ED VET) layihəsində (Qəbələ, İsmayıllı, Qax, "Üzüm-şərab istehsalında beynəlxalq standartların və innovativ texnologiyaların tətbiqi" mövzusu üzrə) – 2019
5. Fransanın İNRA, Türkiyənin Tekirdağ Bağçılıq Araşdırma İnstitutu, Almaniyanın Geilweilerhof Üzümçülük İnstitutu ilə Azərbaycanın yabanı və mədəni üzümünün genetik və ekoloji-coğrafi xüsusiyyətlərinin öyrənilməsi istiqamətində tədqiqat işləri davam etdirilir – 2018-...

**Mükafatlar**

- UNEC-də keçirilən "Soft skills" (Yumşaq bacarıqlar) təlimlərini uğurla bitirdiyinə görə müvəffəqiyyət ***SERTİFİKATI*** – 30.09.2022 .
- "Orta Asiyada Kənd Təsərrüfatı Məsləhət Xidmətlərinin Potensialının Gücləndirilməsi" mövzusunda FAO layihəsi çərçivəsində mütəxəssislər üçün beş təlim (orqanik kənd təsərrüfatı, toxum istehsalı, konservasiyalı kənd təsərrüfatı, zərərvericilərin inteqrir idarə edilməsi, istixana idarəetməsi) kursunu uğurla bitirdiyinə görə ***SERTİFİKAT*** – sentyabr – dekabr 2019.
- Üzümçülük və Şərabçılıq ETİ-nin "Attestasiya, qiymətləndirmə və metodik şura"sı tərəfindən institutun fəaliyyətində aktiv iştirakına görə I yerə layiq görüldüyü üçün ***DİPLOM*** – 19 dekabr 2019.
- Kənd Təsərrüfatı Nazirliyi tərəfindən ölkə üzrə aqrar sahədə peşəkar təlimçilərin formalaşdırılması layihəsi çərçivəsində "Aqrar sahədə təlimçilər üçün təlim" 5 günlük proqramında iştirakına və onu uğurla bitirdiyinə görə ***SERTİFİKAT*** – 12.12.2019.
- "Kənd təsərrüfatı və turizm sahələrində dual Peşə Təhsil və Təlim pilotlarının yaradılması Proqramı" çərçivəsində Almaniyanın Beynəlxalq Əməkdaşlıq üzrə Cəmiyyətinin (GİZ) təşkilati dəstəyi ilə reallaşmış "Beynəlxalq standartlara əsaslanan şərab istehsalı" mövzusunda elmi-praktik seminarda (məruzəçi: Almaniyalı enoloq Jozef Vatsl) uğurlu iştirakına görə ***SERTİFİKAT*** – 07-10 avqust 2018.
- Çin Xalq Respublikası və Azərbaycan Respublikası tərəfindən təşkil olunan Çin Qida və Fermentasiya Sənayesi Milli Tədqiqat İnstitutu və Beynəlxalq Əməkdaşlıq və Ticarətin İnkişafı Departamenti tərəfindən keçirilən "Azərbaycan Respublikası üçün spirtli içkilərin idarə edilməsi və təbliği üzrə seminar"da uğurlu iştirakına görə ***SERTİFİKAT*** – 30.11.2021-20.12.2021.

- Azərbaycanda üzümçülük və şərabçılığın elmi əsaslarla inkişafında xidmətlərinə görə Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqı Federasiyası tərəfindən ***FƏXRİ FƏRMAN*** – Bakı, 22 dekabr 2017.

**Digər fəaliyyətlər**

- Azərbaycan Gənc Alimlərinin I Qurultayının nümayəndəsi (15 dekabr 2017) seçilmişdir.
- 2017-ci ildən "ÜŞETİ-nin elmi əsərləri məcmuəsi" jurnalının redaksiya heyətinin üzvü, 2020-ci ildən isə Baş Redaktoru olmuşdur.
- 2020-ci ildən Türkiyənin Tekirdağ Bağçılık Araşdırma İnstitutunun Viticulture Studies adlı elmi jurnalının redaksiya heyətinin üzvüdür.
- Türkiyə Kənd Təsərrüfatı və Meşə Nazirliyinin Tekirdağ Üzümçülük Elmi-Tədqiqat İnstitutunda üzümçülüklə bağlı elmi tədqiqatların planlaşdırılması, aparılması və nəticələrin tətbiqi sahəsində təcrübəni yaxından öyrənmək məqsədilə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun nümayəndə heyətinin tərkibində Türkiyə Respublikasında səfərdə olmuşdur, oktyabr 2019
- 2019-cu il 19 dekabrda Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunda "2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın Tədbirlər Planına uyğun olaraq keçirilən "Azərbaycanda üzümçülük və şərabçılığın innovativ inkişafında gənclərin rolu" mövzusunda elmi-praktik konfransın təşkilat komitəsinin sədri olmuşdur.
- 2019-cu ildə Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun "Attestasiya, qiymətləndirmə və metodik komissiyası"nın sədri olmuşdur.
- Üzümçülük və Şərabçılıq ETİ-nin Elmi Şurasının və Dequstasiya Komissiyasının üzvüdür, 2017
- "Üzümçülük və şərabçılıq məhsulları"nın standartlaşdırılması üzrə Texniki Komitənin (AZSTAND/TK 22) üzvüdür, 2020.

Ailəlidir, iki övladı var.

**DİL BİLİKLƏRİ**

Azərbaycan/Türk/İngilis/Rus

**ƏLAQƏ:**

*e-mail: movlud.huseynov@unec.edu.az*

*Tel. mob: +994557537787*

**Akademik profillərə keçid:**

*https://scholar.google.com/citations?user=V457qrEAAAAJ&hl=en*

*https://www.researchgate.net/profile/Moevlud-Hueseynov*

*https://orcid.org/0000-0002-8774-3661*

*https://www.webofscience.com/wos/author/record/3857281*

**Tədqiqat sahələri:**

Hidrologiya, Ekologiya, Torpaq Çirklənməsi və Nəzarəti, Biotexnologiya, Bitkiçilik, Üzümçülük və Şərabçılıq.

